Salam əziz dost,

Mənim adım Fuaddır. Universitet tələbəsiyəm və hal-hazırda Bakıda yaşayıram. Həyat dolu və pozitiv biriyəm.

Mənə görə, müharibədə itirən və daha çox itirən tərəf olur, qazanan yox. Buna görə də, sülhün insanların rifah içində və birgə yaşaması üçün yeganə yol olduğuna inanıram.

Ölkələrimiz arasında olan münasibət bir çox aspektdən; millətlər arası dialoq, iqtisadi və siyasi tərəfdən neqativ təsirlərini özündə göstərir. Hərbiyə ayrılan vəsaitlər, təhsilə, səhiyyəyə ayrıla bilərdi. Sərhədlər açıla və həm yurd yuvalarından ayrı düşmüş azərbaycanlılar öz məmləkətlərini sərbəst şəkildə ziyarət edə bilər, həm də iqtisadi cəhətdən ölkələrarası satış sferası genişlənərdi. Bizə uşaqlıqdan məktəbdə, ailədə, cəmiyyətdə anti–erməni düşüncələr yeridilib və hələ də davam edir. Beləliklə, bir çox stereotiplər meydana çıxır, daxili süni nifrət yaradılır. Deməli, ilk öncə öz baxış bucağımızı dəyişməliyik ki, bu nifrət və anlaşılmazlıqların səbəbini tapaq və həll edək. Bütün bunları aşmaq çox zaman alacaq amma “Sülh naminə məktublar” kimi layihələr olduğu müddətcə bu məsələ üzrə optimist düşünürəm. Hər kəsi nifrətə yox, sülhə, dostluğa dəvət edirəm. Artıq istəmirəm ki, haradasa biri ilə danışanda onun erməni olduğu üçün ondan uzaq durum və ya düşüncələrimi onun milliyətinin pərdələməsini istəmirəm. Əslində bu mən tərəfdən heç zaman baş verməyib. Çünki, mənim üçün milliyət, din, irq fərqlilikləri heç zaman problem olmayıb. Bir çox ölkədən çoxlu dostlarım var. İnsanları düşüncələrinə görə sevmək lazımdır, digərləri əngəl deyil.

Ümid edirəm ki, sən də mənim kimi düşünürsən. Bəs sənin fikrincə sülh nədir? Sənin üçün insanların milliyəti, iki nəfərin qələm dostu olmasına əngəl ola bilərmi? Sülh quruculuğunda (Hal hazırda etdiyin kimi) daha sonra da iştirak etmək istərdinmi?

Sülh dolu bir gələcək naminə!

Ən xoş arzularımla,

Fuad